

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# BİR İL VƏ... BİR

## Həm də içimdəki sən BİRlə söhbət

**Əslində bütün olanlar və olmuşlar, elə olacaqların özü də şəxsən məndən uzaqda göy üzünün Tanrı oturan yerində yazılıb, xəritəsi çəkilib, hökmü verilib. Və beləcə, bir bəndə olaraq mən onu anbaan, zaman-zaman yaşam missiyam kimi gerçəkləşdirirəm. Ona əlavə etmək, onu dəyişmək və yaxud da durdurmaq mənim və bütövlükdə bəndənin gücündən, imkanlarında çox-çox uzaqdı. Hətta heç xəyala da, yuxuya da sığmayan bir şeydi. Ona görə də bir bəndə olaraq yaşamın təfərrüatlarına varanda onda elə bil ki, gözümün önündən bir kino lenti gəlib keçir və mən o kino lentin izləyicisinə çevrilirəm. Otururam evin bir küncündə, gözlərimi yumub izləyirəm həmin o lenti. Təbii ki, gözlərimi yumub sözü sizi qıcıqlandıracaq. Amma inanın ki, bütün bu həyat deyiləni ancaq gözüyumulu izləyəndə hər şey gün kimi görünür sənə. Axı sən onu içində izləyirsən, ekrana baxmırsan. Və deməli...**

Bilmirəm, oxucuların yadındadı, yoxsa yox. Ötən ilin dekabrında, ilin son yazısını yazanda içimdə 2019-un son yazısını yazacağıma o qədər də ümidli deyildim. Müəyyən həyat problemləri, özəl qayğılar, sağlamlıq məsələləri və nələr, nələr mənə elə yüklənmişdi ki, onun altından qalxacağıma inanmırdım, amma ümidsiz də deyildim. Sadəcə, sızıltılı alınmasın deyə, yazımın ovqatına bir çimdik duz qatmışdım - Ümid duzu! Görünür, hardasa Yaradanın xoşuna gəldi o Ümid duzu. Və mənə bir illik ömür yolu bəxş etdi... Və mən də başımı aşağı salıb içimdə Allahım, sən o BİRin göstərdiyi yolu anbaan, yaşaya-yaşaya gəlib çıxdım bu dekabrın sonuna. Və həmin bu sondan nəfəs dərmədən çevrilib baxıram arxaya. Baxıram... və həm düşünürəm, həm də xatırlayıram. Bu bir ildə nələr olmadı ki... Bəli, nələr olmadı ki?!

Öncə onu deyim ki, bu bir ili də Qarabağa gedə bilmədim... bu bir ili də Tuğa həsrət qaldım... və bu bir ili də adımı qaçqın siyahısından çıxarmaq gücüm olmadı...

Bu bir ildə özəl həyatımda doğmaların itkisi də sızıldatdı məni. İtirdiyim əzizlərin yeri indinin özündə də ağrıyır. Və mən o ağrılardan yalnız xatirələrlə və bir də onların adına oxunan dualarla təsəlli tapıram. Həm də düşünürəm ki, həyatımdan qopub ayrılan xalam, dayım, əminəvələri, dostum... bütün bunlar elə o BİRin verdiyi hökmün icrasıdı. Və mən Tanrı dərgahına qovuşanlar üçün yalnız bir salavat çevirməklə o BİRi anladığımı etiraf etməliyəm. Və belə də edirəm.

Arxada qalan yolda övladlarımın, nəvələrimin təbəssümü də səpələnib, onların həyatımdakı özəllikləri də, şıltaqlıqları da. Oğlumun, qızımın uğurları da, imtahandan aldıqları yüksək qiymətlərin şirinliyi də bu bir ilin payına düşür. Deməli, həyatımı nizamlayan, həyatımı ağrı-acısıyla sevinc təbəssümünü naxışlayan o BİR məni üzdüyü kimi mükafatlandırmağı da unutmayıb. Şükür!..

Hə, gəlirəm bir məqama. O məqam ki, mənim həyatımın kredosudu... mənim ömrümün mənası, həm də yaşamaq stimulumdu. Və mən məhz onun varlığını, onun mənə xəyalən, ruhən ötürdüyü müsbət impulsları qəbul edə-edə yaşayıram, ümidlənirəm, düşünürəm. Həm də bütün bu dediklərimi sözə çevirirəm - onun oxuduğu sözə. Həmin sözləri oxucularımla da bölüşürəm, xoşlarına gəlsə də, gəlməsə də. Özü də bütün məqamlarda vurğulayıram ki, söz ONA ünvanlanıb, onun üçün yazılıb . Yazdıran isə o BİRdi! Bax, elə indi də bütün yaşantılarımın və yazdıqlarımın içərisində mənim ürəyimin pıçıltılarını önə çıxaran Odur və bir ki, BİRdi.

**Hər ağrının öz dadı var**
**Baldı, ürəyin ağrısı...**
**Onu duymayan kəslərə -**
**Laldı, ürəyin ağrısı...**

**Baxa-baxa bu zalıma**
**Cavab gəzir sualına...**
**Yetənəcən vüsalına -**
**Kaldı, ürəyin ağrısı!..**

**Qucaqlayıb bir daşı tək**
**Tək düşündüm, bir naşı tək!**
**Mənimlə can sirdaşı tək -**
**Qaldı, ürəyin ağrısı!**

**Səssiz qoşub vaxt xoruna**
**And içdirib bəxt goruna...**
**Əbülfəti öz toruna -**
**Saldı ürəyin ağrısı...**

***

Yenə baxıram üzü geri. Və yenə gözümün önündən keçən həmin o kino lentindəki məqamları sadalamaq istəyirəm. Amma fikirləşirəm ki, bu halımla, bu təkrarçılığımla oxucuların, təbii ki, həm də Sənin bayram ovqatını korlamış olacam. Buna görə də bir anlıq da olsa o istəyimi dondurmağa qərar verirəm. Amma onsuz da içimdəki elə içimdə qalır, həyatıma hopur və sən də bütün bunlardan xəbərdarsan. Deməsən də, yazmasan da, olmuşları da, olanları da mənim qədər bilirsən. Və deməli, mənimlə razılaşarsan ki, indi çözməyə çalışdığım kələfin düyün düşən yerlərini açmağa elə də ciddi bir zərurət yoxdu. Çünki o düyünlərin nə olduğunu, nədən olduğunu biz ikimiz artıq təkrar-təkrar çözmüşük və bundan sonrakı ömrümüzdə də çözəcəyimiz birmənalıdı. Bunu ona görə xüsusi vurğulayıram ki, mənim ibadət etdiyim DİNin adı sevgidi. O BİR ruhuma, qəlbimə məhz sevgini hopdurub. Hər gün də, hər an da əlimi o BİRə açanda etdiyim dualarım məhz sevgi üçündü.

Həyatımın bütün anlarını xəyalla, yata biləndə isə yuxuyla bəzəyirəm. Mənə xəyalpərvər desələr də, məni xəyallara görə günahlandırsalar da, mən Qarabağa da ... Sənin yanına da... Tanrının dərgahına da hələ ki, xəyallarımla gedib çatıram, xəyallarımla qovuşuram. Və şükür edirəm ki, bu xəyallar var. Bu xəyallar mənim üçün yaşıl işıqdı və yaxud da bədirlənmiş aydı. Yəqin ki, bu sözləri oxuyanda həmişə dediyin sözü yenə təkrar edirsən. Axı sən məni dinə dəvət etməyi, haqq yoluna gətirməyi qarşına məqsəd qoymusan. Hər dəfə də işlətdiyin söz var: Əstağfirullah!- de. Mən də deyirəm sevgi dinim üçün. Və yazıram da:

**Bilə-bilə, ya fərqinə varmadan**
**Açıq-aşkar bitirsən, ürəyi.**
**Sanki yarpaq qoparırsan tarmadan -**
**Yelə verib itirirsən, ürəyi.**

**Tanrım kimi əlçatmazdın, göydəydin**
**Yerdən baxıb, mən də çəkdim göy dərdin.**
**Təbəssümlə, nəfəsinlə göyərtdin -**
**Sən hər hala gətirirsən ürəyi.**

**Dərdi süzüdün sən ürəyin biçimdə**
**Nə olar ki, bir nəfəs içim də!**
**Göz yaşını gizlədərək içimdə -**
**Gülə-gülə ötürürsən ürəyi.**

**Sənin üçün qurbanlığa dönüm ki**
**Saçlarımı kipriyimə hörüm ki.**
**Allah mənə imkan versin görüm ki -**
**Ayaq altdan götürürsən ürəyi!**

Bəli, bu təkcə arzu, istək deyil. Bu həm də o BİRin diqtəsi, o BİRin ürəyində göyərtdiyi Sevginin səsidi. Mən də bu bir il ərzində onilliklərdən gələn o səsi ancaq misralamışam, şeirə çevirmişəm. Elə bu gün də həmin o işlə məşğulam. Nə qədər varam, ayaqdayam, belə də olacaq. Axı, haqdan gələn haqqın özünün iradəsilə yekunlaşır. Deməli, hələ düşünməyə, hələ sevgimin əlini sıxmağa zamanım var. Mənim isə indiki anda içimi göynədən bütün məqamlarla yanaşı, yolumu gözləyən dağlara demək istədiklərim şeirləşir. Mən onu da sənə pıçıldayıram. Və yazıram ki:

**Üzümü sizə tutmuşam**
**Ot bitən izə tutmuşam...**
**Dərdi tay üzə tutmuşam -**
**Dağlar, məni gözləməyin...**

**Çax-çaxam baş ağrıdıram**
**Qoymur yerdən ağrı, duram!**
**Ömrü boşa bağırdıram -**
**Dağlar, məni gözləməyin.**

**Qəlbimdən axan qara qan**
**Yaradı, vallah, yara, qan!**
**Bezib dərdimdən Yaradan -**
**Dağlar, məni gözləməyin.**

**Dizimdən təpər, candan qor**
**Tükənim arzu, gözdə tor!**
**Məni həmənki kimi gör -**
**Dağlar, məni gözləməyin.**

**Özümü yenib gələcəm**
**Şam kimi sönüb gələcəm...**
**Ruh kimi dönüb gələcəm -**
**Dağlar, məni gözləməyin!..**

***

Bəli, bir il arxadadı. Qarşıda nə boyda zaman kəsiyi var, təbii ki, onu yalnız o BİR bilir. Və mən də o BİRin bəndəsi kimi dualarımla, yazı-pozumla, bacardığım iş-güclə və təbii ki, bir də sevgimlə o zaman kəsiyinin içində olacağıma ümidliyəm. Düşünürəm ki, mənim o zaman kəsiyində olmağım yəqin ki, kimsənin haqqına müdaxilə kimi sayılmayacaq. Və mən də eləcə yaşam payımı misralaya-misralaya çalışacam ki, sənin könlünü ələ ala bilim, haqqım olan nədisə ona qovuşum. Bu diləyin, bu istəyin yəqin ki, əleyhinə çıxmayacaqsan. Ən azından ona görə ki, mən Allahdan umduğumu və ən əsası isə Allahın verdiyini yuxu kimi yaşamaqdan, xəyal kimi daşımaqdan ləzzət alsam da, amma reallığın da nə demək olduğunu anlayıram...

İndi bu yazını ilin son pıçıltısı kimi ürəyimdən keçirdiyim anın özündə mənə elə gəlir ki, sən ən yaxın nöqtədə dayanıb bu təkrarçılıqdan, bu özünüifadədən yorulduğunu deməyə çalışırsan, bəlkə də deyirsən. Olsun! Təkrarın nə demək olduğunu hər kəs bilir. Mən də unutmamışam. Ona görə də bildiyimi danışmaqdan, öyrətməkdən, xatırlatmaqdan yorulmuram. Və burda da qəbahət bir iş də, bir nüans da görmürəm. Gördüyüm yuxular, qurduğum isə xəyallardı. Bax, elə həmin o yuxuların, xəyalların bir anı da bu şeirdə gerçəkləşibdi. O şeirdə sənə üz tutub demişəm ki:

**Mənə yuxunu danış**
**Vergülünü unutma...**
**Kipriyinin ucunu -**
**Mən öpməmiş qurutma!**

**Xəyalını pıçılda**
**Asılım qanadından...**
**Ürəyimdə puçurla -**
**Məst olum inadından...**

**Mənə arzunu söylə**
**Dinləyim dua kimi...**
**Keçsin, sən elə eylə -**
**İçimdən şüa kimi...**

**Mənə istəyini de**
**Susma, danış baxışla...**
**Səni dəli tək öpdüm -**
**Küsmə, dəli, bağışla!..**

Hə, bu da 2019-un sonuncu köşə yazısı... bu da mənim hər an əlimi açıb səcdəsində dayandığım o BİRin mənə ayırdığı bir illik ömürdə yaşadıqlarımın kiçicik ifadəsi... bu da o birin mənim ürəyimdə and yeri etdiyi sən BİRə ünvanlanan istəkləri, duyğuları, pıçıltıları...

Düşünürəm ki, bəlkə də bu bir ildə etdiyim duaların sözlə ifadəsini bir yerə toplasam neçə cildlik kitablar alınardı. Amma mən onları yazıya köçürmədim. Çünki həmin dualar BİRdən ürəyimdə olan sən bir üçün idi. Aramızda olan bütün xəyalları, xatirələri, hətta yuxuları mən yalnız o BİRlə və Sənlə bölüşməyə can atmışam və etmişəm də. Axı bu, pünhan duyğulardı, sən də ismi-pünhan! Ona görə də 2019-un son köşə yazısını elə sənə yazdığım bir şeirlə də bitirirəm:

**Doğma deyiləm sənə**
**Yad da ola bilmirəm...**
**Kədərə gücüm çatmır -**
**Şad da ola bilmirəm...**

**Ruhumda bir sönüklük**
**Kipriyimdə nəm düyün...**
**Gözlənilməz dönüklük -**
**Qəmdi, düşüb qəm, düyün...**

**Baxdığım bulud qara**
**Gəzdiyim yer pıtraq...**
**Həsrət də çəkir dara -**
**Qoymur susub oturaq...**

**Bu halda, bu durumda**
**Göz yolda, qulaq səsdə...**
**De, mən harda durum ta -**
**Son qoyasan bu qəsdə!..**

**... Və beləcə, o BİRimin hər birimizə verdiyi ömür payının işığında 2020-ci ilə sevgilərlə qədəm qoymağınızı arzu edirəm. İstəyirəm ki, o BİR ürəyimdəki sən BİRin həyatını, ömrünü sevgimə bələsin. 2020-ci ilimiz sevgiylə süstlənsin!..**